UOT 581.5/1

ÇİLOV ADASINDA YAYILAN YABANI BİTKİLƏRİN TƏDQİQİ

KƏMALƏ ƏSƏDOVA*, GÜNEL QULİYEVA, XARIBÜL ƏZİZXANLI, GÜNEL ALLAHVERDİYEVA

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutu, Bakı ş., AZ 1106, Azadlıq pr., 155
asadovakamala79@gmail.com

Bu tədqiqat Xəzər dənizində yerləşən və antropogen təsirlərə məruz qalan Çilov adasında yayılan yabanı bitkilərin floristik tərkibinin araşdırılmasına həsr olunmuşdur. Xüsusilə qeyd edilməlidir ki, ada uzun illər ərzində neft və neft məhsullarının sızması nəticəsində ciddi ekoloji çirklənməyə məruz qalmışdır. Bu amil burada formalaşmış bitki örtüyünün tərkibi və strukturuna təsir göstərmiş, yalnız stresə davamlı, adaptasiya qabiliyyəti yüksək olan növlərin yaşamasına imkan yaratmışdır.

Arealoji analiz nəticəsində Çilov adasında 9 fəsilə 11 cins, 11 növə aid dərman, qida, yem əhəmiyyətli növlərin yayıldığı məlum olmuşdur.

Adaya son 50 ildə ilk dəfə olaraq, helikopter vasitəsilə floristik ekspedisiya təşkil edilmişdir. Ekspedisiya zamanı 8 fəsilə (*Poaceae, Tamaricaceae, Amaranthaceae, Plantaginaceae, Asteraceae* (*Compositae*), *Fabaceae, Caryophyllaceae, Elaegnaceae*), 15 cins (*Avena, Anisantha, Aegilops, Reaumuria, Petrosimonia, Plantago, Artemisia* (*Artanacetum*), *Tragopogon, Melilotus, Lotus, Medicago, Vicia, Glycyrrhiza, Gypsophila, Elaeagnus*) üzrə 21 növə aid 55 herbari nüsxəsi və 4 növə aid 5 toxum nümunəsi toplanılmışdır. Toplama zamanı növlərin ekocoğrafi məlumatları (en və uzunluq dairəsi, dəniz səviyyəsindən hündürlüyü) qeydə alınmış və həmçinin ekoloji xüsusiyyətləri təhlil edilmişdir. Nəticədə, bu ərazidə yayılan növlərin əsasən neftlə çirklənmiş torpaq və sərt iqlim şəraitinə uyğunlaşmış, tolerant xüsusiyyətlərə malik bitkilərdən ibarət olduğu müəyyən olunmuşdur.. Toplanılan növlərin Diva-GIS proqramı vasitəsilə areal xəritəsi tərtib edilmişdir. Tədqiqat nəticəsində Paxlalılar fəsiləsinin Lərgə cinsinə aid 1 növün (*Vicia lutea* L.) yeni yayılma sahəsi aşkarlanmışdır.

Həmçinin, bəzi introduksiya olunmuş və invaziv növlərin də adanın florasına daxil olduğu müşahidə edilmişdir. Araşdırma çirklənmiş mühitlərdə bitkilərin yaşamaq strategiyalarını, bioekoloji uyğunlaşmalarını və müxtəlifliyini öyrənmək baxımından əhəmiyyətlidir. Eyni zamanda, bu tədqiqat nəticələri çirklənmiş ərazilərdə bərpa tədbirlərinin planlaşdırılması və fitomeliorasiya potensialının qiymətləndirilməsi üçün ilkin baza kimi istifadə oluna bilər.

Açar sözlər: *yabanı bitki, Çilov adası, taksonomik tərkib, nomenklatur dəyişiklik*

GİRİŞ

Çilov (Jiloy) adası Xəzər dənizinin Abşeron körfəzinin eyniadlı arxipelaqına (bir-birinə yaxın yerləşən eyni mənşəli adalar qrupu) aid olan ən böyük adadır. Abşeron arxipelaqına 10 ada daxildir: Böyük Tava, Kiçik Tava, Çilov, Pirallahı, Qu adası, Tavaaltı adası, Koltiş, Qarabattaq, Dardanel və Yal adası.

Ümumi sahəsi 11,4 kvadratmetr olan Çilov adası Abşeron yarımadasından 25 km, Bakı şəhərindən 100 km şərqdə yerləşir. Çilov və Pirallahı adası arasında 60-70 km-lik dəniz yolu (boğaz) vardır. Adada qumlu-gilliceli torpaqlar üstündür. Sahilləri girintili-çıxıntılıdır. Şimal-qərbində Urunos yarımadası, cənub-qərbində isə Cənub Dili burnu yerləşir (Vikipediya). Çilov adasına gəmi və ya helikopter vasitəsilə getmək mümkündür.

Adada yarımsəhra bitkiliyi üstünlük təşkil edir. Ada üçün Xəzri adlı şimal küləkləri səciyyəvidir. Küləklər payız-qış mövsümünə təsadüf edir. Ərazi quru subtropik iqlimə malikdir. Bura Abşeron yarımadasına xas 150-200 mm yağıntı düşür. Son zamanlar adaya 35 min ağac və

https://doi.org/10.61642/20256
Available online 10 December 2025

500 qızılgül kolu əkilmişdir. Yerli sakinlərin kiçik bağ sahələrində zeytun, əncir, nar, gilas, fındıq və akasiya ağacları çətinliklə də olsa becərilir (Vikipediya).

Çilov ərazisində yabanı bitki müxtəlifliyinin mövcud vəziyyətinin kritik təhlilinə ehtiyac vardır.

Ədəbiyyat mənbələrində, eləcə də, herbari fondlarında saxlanılan bitki kolleksiyaları arasında Çilov adasında yayılan bəzi növlərə rast gəlinsə də, bu ərazinin bitkiliyinə dair məlumat demək olar ki, yoxdur. (Əsədova, 2017; Зернов, 2021; Мусаев, 1980; Мусаев, 1991).

Tədqiqatın məqsədi Çilov adasında yayılan yabanı bitki müxtəlifliyinin öyrənilməsi, areallarının dəqiqləşdirilməsi, toxum və herbari materiallarının toplanılması olmuşdur.

MATERİAL VƏ METODLAR

Tədqiqat ərazisi Pirallahı rayonunun Çilov adasıdır. Tədqiqat materialı ekspedisiya zamanı toplanılmış toxum və herbari nümunələridir. Tədqiqat obyekti yem, ərzaq və dərman əhəmiyyətli yabanı bitkilərdir. Tədqiqat zamanı ədəbiyyat materialı olaraq "Флора Азербайджана" (Карягин, 1950), S.H. Musayev (1980), I.G. Loskutov (Loskutov, 2007; Loskutov, Rines, 2011) və s., fond materialı olaraq AR ETN Botanika İnstitutunun (BAK) və Genetik Ehtiyatlar İnstitutunun (AGRI) Herbari Fondunda saxlanılan bitki kolleksiyalarından istifadə olunmuşdur.

Beynəlxalq deskriptor qaydalarına uyğun toplanılan hər bir növün ekocoğrafi göstəriciləri qeydə alınmışdır. Ekocoğrafi göstəricilərə dəniz səviyyəsindən hündürlük, en, uzunluq dairəsi, biotopu daxildir.

Növlərin prioritet adları bitki nomenklaturası üzrə Beynəlxalq Məlumat Bazalarının (APG IV, IPNI, APNI, ILDIS, CWR, WFO), çoxcildli "Azərbaycan florası" (Флора Азербайджана, 1950-1961); "Qafqaz florası" (Флора Кавказа, 1952), A.Əsgərovun əsəri (Əsgərov, 2016), həmçinin Abşeron florasına dair əsərlər əsasında dəqiqləşdirilmişdir (Карягин, 1952; Зернов, 2021).

27 may 2023-cü il tarixində AR ETN Genetik Ehtiyatlar İnstitutunun əməkdaşları tərəfindən son 50 ildə ilk dəfə olaraq, Çilov adasına təşkil edilmiş floristik ekspedisiya helikopter vasitəsilə həyata keçirilmişdir.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Arealoji (ədəbiyyat və herbari fondu məlumatları əsasında) analiz nəticəsində müəyyən edilmişdir ki, Çilov adasında 9 fəsilə 11 cins, 11 növə aid dərman, qida, yem əhəmiyyətli növləri yayılmışdır.

***Poaceae Barnhart*-Taxıllar**

***Avena* L. (Vələmir)**

A.barbata Pott ex Link (*A.wiestii* Schreb., *A. hirtula* Lag.) - Saqqalvari v.

***Cynodon* Rich. (Çayır)**

C. dactilon (L.) Pers.-Barmaqvari ç.

***Schismus* Beauv. (Sxismus)**

S. arabicus Nees –Ərəb s. ("Azərbaycanın bitki aləmi" əsərində yalnız Kür-Araz və Naxçıvan bölgəsində yayıldığı qeyd olunub.)

***Caryophyllaceae* Juss.- Qərənfilçiçəklilər**

***Cerastium* L. (Dəli cincilim)**

C. semidecandrum L. (*C. dentatum* Moschl)- Dişli d. c.

***Asteraceae* Dumort (*Compositae* Giseke)- Asterçiçəklilər (Mürəkkəbçiçəklilər)**

***Lasiopogon* Cass. (Laziopoqon)**

L. muscoides (Desf.) DC.- Mamırvari l.

***Frankeniaceae* S. F. Gray -Sayqaçotuçiçəklilər**

***Frankenia* L. (Sayqaçotu)**

F. pulverulenta L.- Tozlu s.

***Geraniaceae* Juss.- Ətirşahçiçəklilər**
***Geranium* L. (Ətirşah)**
G. molle L. –Zərif ə.
***Fabaceae* Lindl- (*Leguminosae* Juss.) Paxlalılar və ya Fabakimilər**
***Medicago* L. (Qarayonca)**
M. monspeliaca L. (*Trigonella monspeliaca* L.)- Monpeli q.
***Scrophulariaceae* Juss.- Qurdağzıçiçəklilər**
***Parentucellia* Viv. (Parentuçeliya)**
P. latifolia (L.) Caruel- Enliyarpaq p.
***Solanaceae* Juss.- Badımcançiçəklilər**
***Datura* L. (Dəlibəng)**
D. stramonium L.- Adi d.
***Apiaceae* Lindl. -Kərəvüzkimilər (*Umbelliferae* Juss.- Çətirçiçəklilər)**
***Torili*s Adans. (Torilis)**
T. nodosa (L.) Gaertn. - Buğumlu t.

Ekspedisiya zamanı 8 fəsilə, 15 cins (Vələmir, Anizanta, Buğdayıot, Keçiağacı, Qışotu, Bağayarpağı, Yovşan, Yemlik, Xəşənbül, Qurdotu, Qarayonca, Lərgə, Biyan, Çoğan, İydə) üzrə 21 növə aid 55 herbari nüsxəsi və 4 növə aid 5 toxum nümunəsi toplanılmışdır. Bu bitkilər əsasən əkinlərdə, çəmənliklərdə, dənizsahili qumluqlarda və yol kənarlarında yayılmışdır.

Ekspedisiya 2 marşrut üzrə həyata keçirilmişdir. Bunlardan birincisi Mərkəzi anbarın qarşısı, 1,5 ha ərazinin 1-10 m^2 otluq sahəsidir. Ərazinin relyefi düzən, torpağın mexaniki tərkibi - qumlu, otarılma səviyyəsi ortadır. N 40º19'37", E 50º36'26", H -33 m. Bu ərazidən 12 növ (növbəliyarpaq keçiağacı, qarşıyarpaqlı qışotu, iyli yovşan, göyümtül qarayonca, qara paxla lərgə, sarımtıl l., süpürgəvari çoğan, tüksüz biyan, daryarpaq iydə, şişkin vələmir, saqqalvari v., yumşaqtükcüklü v.) toplanılmışdır.

İkinci marşrut Mənzil Kommunal Təsərrüfat Yaşıllaşdırma sahəsinin ətrafı, 2 ha ərazinin 1-10 m^2 sahəsidir. Ərazinin relyefi düzən, torpağın mexaniki tərkibi - qumlu, otarılma səviyyəsi yoxdur. N 40º19'16", E 50º36'11", H -43 m. Buradan 10 növ (lansetli bağayarpağı, dərman xəşənbül, dar qurdotu, xamırmaya qarayonca, krovel anizanta, şübhəli yemlik, qara paxla lərgə, lüdovik vələmiri, saqqalvari v., ikidüyməli buğdayıot) toplanılmışdır.

Ekspedisiya zamanı Çilov adasından Vələmir cinsinin 4 növü (*Avena eriantha* Durieu, *A. ventricosa Bal*., *A. barbata* Pott ex Link, *A.sterilis* subsp. *ludoviciana*) toplanılmışdır. Ədəbiyyat və fond materiallarının araşdırılması zamanı məlum olmuşdur ki, *A. barbata* Pott ex Link növü S. Musayev tərəfindən, digər növlər (*A. eriantha* Durieu, *A. ventricosa Bal*., *A. sterilis* subsp. *ludoviciana*) isə tədqiqat ərazisindən ilk dəfə olaraq bizim tərəfimizdən toplanılmışdır.

17.V.1964 və 17.V.1968-ci illərdə Musayev tərəfindən Çilov adasından toplanılan *A. barbata* Pott ex Link növü həmin ərazidə çox geniş yayılmışdır.

Əcdad bitkilərindən olan Paxlalılar fəsiləsinin qiymətli yem bitkisi sayılan sarımtıl lərgə (*Vicia lutea* L.) növünün Çilov adasında yayılması barədə herbari fondu və ədəbiyyatda heç bir məlumat yoxdur. İlk dəfə olaraq, ekspedisiya zamanı bu növün toxum və herbarisi tərəfimizdən toplanılmışdır. Çilov adası *V. lutea* üçün yeni yayılma sahəsi hesab edilir.

Tədqiqat ərazisindən toplanılan növlərin bioloji analizi aparılmış, növlərin yüksəklik qurşaqlarında yayılma xüsusiyyətləri, iqlim amilləri və substrata münasibətlərinə görə ekoloji qrupları müəyyənləşdirilmişdir (Cədvəl 1.).

Cədvəl 1.

Tədqiqat ərazisindən toplanılan növlərin bioekoloji xüsusiyyətləri

Fəsilə	**Cins**	**Növ**	**Ekobiomorfu /ekoloji qrupu**	**Dağ qurşaqları üzrə yayılması**	**Biotopu/ Vegetasiya müddəti (ay)**
Poaceae Barnhart-Taxıllar	*Avena* L.-Vələmir	*A. eriantha* Durieu-Yumşaqçiçəkli v.	B/MK	Aşağı dağ qurşağına qədər	quru otlu, gilli və daşlı yerlərdə və yamaclarda, qumluqlarda, tarlalarda, yol kənarlarında / IV-V
		A.ventricosa Bal. – Şişkin v.	B/M	Ovalıq	Dənizkənarı qumluqlarda / IV-V
		A.barbata Pott ex Link-Saqqalvari v.	B/KM	Ovalıq, bəzən aşağı dağ qurşağı	qaya bitkiliyi, kolluq, əkin sahəsinin kənarı / III-VI
		A.sterilis subsp. *ludoviciana* (Durieu) Nyman-Lüdovik v.	B/MK	Ovalıq-orta dağ qurşağı	əkin sahələrində / IV-VI (VII)
	Anisantha C.Koch-Anizanta	*A. tectorum* (L.) Nevski-Krovel a.	B/K	Ovalıq-orta dağ qurşağı	Quru gilli yamaclarda / IV-VI
	Aegilops L.-Buğdayıot	*Ae. biuncialis* Vis.- İkidüyməli b.	B/M	Ovalıq, aşağı dağ qurşağı	Dəniz sahili qumluqlarda, quru gilli və çınqıllı, otlu, daşlı yamaclarda, əkinlərdə / V-VI
Tamaricaceae Link-Yulğunçiçəklilər	*Reaumuria* L.-Keçiağacı, reomyuriya	*R. alternifolia* (Labill.) Britten (*R. cistoides* Adams., *R. hypericoides* Willd.)-Növbəliyarpaqk.	Ç/K	Düzən	Quru, gilli, daşlı yamaclarda, şoranlı yerlərdə, duzlu göl, palçıq vulkanı ətrafında/ V-VII
Amarantha ceae Juss.-Pəncərçiçəklilər (Amarantkimilər)	*Petrosimonia* Bunge-Qışotu	*P.oppositifolia* (Pall.) Litv.-Qarşıyarpaqlı q.	B/K	Düzən	Şoran yerlərdə/ V-IX
Plantagina ceae Juss.-Bağayarpağıkimilər	*Plantago* L.-Bağayarpağı	*P. lanceolata* L.- Lansetli b.	Ç/M	Ovalıqdan subalp qurşağa qədər	Qtlu yamaclarda, əkin sahələrində, bağlarda, bostanlarda, kanal, yol kənarlarında / V-VIII; VI-X

Asteraceae Dumort (*Compositae* Giseke)-Asterçiçəklilər (Mürəkkəb çiçəklilər)	*Artemisia* L. (*Artanacetum* Rzazade)-Yovşan	*A. fragrans* Willd. (*A. erivanica* Grossh.; *A. fedorovii* Rzazade; *A. hanseniana* Grossh.; *A. meyeriana* Grossh.; *A.santonica* L.)-İyli y.	Ç/K	Ovalıq– orta dağ qurşağı	Quru yamaclarda / IX-X; X-XI
	Tragopogon L.- Yemlik	*T. dubius* Scop.-Şübhəli y.	İ/MK	Orta dağ qurşağı	Meşə kənarlarında, kolluqlarda / V-VI; VII-VIII
Fabaceae Lindl. (*Leguminosae* Juss.)-Fabakimilər (Paxlalılar)	*Melilotus* Hill.-Xəşənbül	*M. officinalis* (L.) Pall. - Dərman x.	İ/MK	Düzən – orta dağ qurşağı	Daşlı-qumlu yerlər, sıldırım qayalıqlar, palıd-vələs meşəlik kənarı / V-VI; VI-IX
	Lotus L.-Qurdotu	*L. angustissimus* L.- Dar q.	B və ya İ\M	Ovalıq və aşağı dağ qurşağı	nəmli, qumlu yerlərdə, çəmənliklərdə, yamaclarda / V-VI; VII-VIII
	Medicago L.-Qarayonca	*M.sativa* subsp. *caerulea* Less. ex Ledeb.-Göyümtül q.	Ç/K	Düzən – aşağı dağ qurşağı	Quru, gilli, daşlı yamaclar / V-VII(VIII); VIII-IX(X)
		M. lupulina L.-Xamırmaya q.	B və ya İ/M	Ovalıq - orta dağ qurşağı	Kolluqlarda, çəmənliklərdə, otlu yamaclarda, bağlarda, çay kənarlarında /IV-VII
	Vicia L.-Lərgə	*V.sativa* subsp. *sativa*- Əkin l.	B, İ/M	Ovalıq - orta dağ qurşağı	çay sahili / V; V-VI
		V. sativa subsp. *nigra*- Qarapaxla l.	B/K	Ovalıq - orta dağ qurşağı	Daşlı-çınqıllı yamac, kserofit ot və kol bitkiliyi, kolluq, çay sahili / V; V-VI
		V. lutea L.-Sarımtıl l.	B/M	Ovalıq, aşağı	Kolluqlarda, bağlarda, üzümlüklərdə / V-VI
	Glycyrrhiza L.- Biyan	*G. glabra* L.-Tüksüz b.	Ç/M	Ovalıq, dağətəyi yamaclarda	Çay sahili, kanal ətrafı, otlu yamacılarda /(V)VI-VII; VII-IX
Caryophyllaceae Juss.-	*Gypsophila* L.- Çoğan	*G.paniculata* L.-Süpürgəvari ç.	Ç/M	Ovalıq	Dəniz sahili qumluqlarda, üzümlüklərdə /VI-

Qərənfilçiçəklilər					VII
Elaegnaceae Juss.- İydəkimilər	*Elaeagnus* L.- İydə	*E. angustifolia* L.- Daryarpaq i.	Ç/M	Aşağı, bəzən orta dağ qurşağı	Meşə kənarlarında, tuqay meşələri boyu / V-VI; IX

Burada: **Ekobiomorf**- B-birillik, İ-ikiillik, Ç-çoxillik; **Ekoloji qrup**-MK-mezokserofit, KM-kseromezofit, M-mezofit, K-kserofit.

Cədvəldən göründüyü kimi, toplanılan növlərdən ən çoxu Mezofit qrupuna (10 növ) və ən çoxu birillik bitkilərə (12 növ) aiddir. Ən çox növ orta dağ qurşağında yayılmışdır (10 növ).

NƏTİCƏ

Tədqiqat ərazisindən toplanılan növlər əsasında ilkin taksonomik tərkibdə dəyişiklik olmuşdur. Belə ki, siyahıya 4 fəsilə, 13 cins, 20 növ əlavə edildi və beləliklə, Çilov adasında 13 fəsilə, 24 cins, 31 növün yayıldığı müəyyən olundu.

Çilov adasının bitkiliyinin daha ətraflı öyrənilməsi üçün əraziyə gələcəkdə növbəti ekspedisiyaların təşkil olunması məqsədəuyğundur. Toplanılan növlərin quraqlıq və duzluluğa davamlılıq xüsusiyyətlərini nəzərə alaraq, gələcəkdə həmin növlərdən hibridləşmə və seleksiya işlərində gen mənbəyi kimi istifadə etmək olar.

MİNNƏTDARLIQ

Müəlliflər tədqiqat ərazisində ekspedisiyanın həyata keçirilməsinə şərait yaratdıqları üçün Azərbaycan Respublikası Bakı şəhəri Pirallahı rayon İcra hakimiyyətinin başçısı Vasif İmanova, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəfə minnətdarlığını bildirirlər.

ƏDƏBİYYAT

Əsədova K.V. Abşeronda yayılan Lərgə (*Vicia* L.) növlərinin taksonomik tərkibi, yayılması və istifadəsi imkanları. Bakı: AMEA Genetik Ehtiyatlar İnstitutunun elmi əsərləri, 2017;VI(1-2):167-173. [Asadova, K.V. Taxonomic composition, distribution and usage potential of Vicia L. species in Absheron. Baku: *AMEA Genetic Ehtiyatlar İnstitutunun elmi asarlari =Scientific works of the Institute of Genetic Resources of ANAS*. 2017;VI(1-2):167-173 (in Azerbaijani)]

Əsgərov A. M. Abşeron yarımadasında kritik təhlükə altında olan bəzi ali bitkilərin ekoloji qiymətləndirilməsi və yeni yayılma sahələri. A.M. Əsgərov, K.V. Əsədova, V.M. Güvəndiyev [və b.] AMEA Məruzələri, - Bakı: 2012;LXVIII(1):99-105. [Asgarov, A.M., Asadova, K.V., Guvendiyev, V.M. et al. Ecological assessment and new distribution areas of some critically endangered higher plants in the Absheron Peninsula. Proceedings of ANAS, Baku, 2012;LXVIII(1):99–105. (in Azerbaijani)]

Əsgərov A. M. Kritik təhlükə həddində olan (Critically Endangered) ali bitkilərin biosistematik tədqiqi, mühafizəsi və in situ bərpasının elmi əsaslarının işlənib hazırlanması (Abşeronun flora biomüxtəlifliyi misalında).A.M. Əsgərov, K.V. Əsədova, V.M. Güvəndiyev [və b.]. AMEA Botanika İnstitutunun Elmi əsərləri, Bakı: 2012;XXXII:25-33. [Asgarov, A.M., Asadova, K.V., Guvendiyev, V.M. et al. Scientific basis for biosystematic research, conservation and in situ restoration of critically endangered higher plants (case study of Absheron's floral biodiversity) AMEA Botanika İnstitutunun Elmi asarlari= Scientific works of the Institute of Botany of ANAS, Baku, 2012;XXXII:25–33.(in Azerbaijani)]

Əsgərov A. M. Azərbaycanın bitki aləmi. A. Əsgərov. Bakı: TEASPRES, 2016;444 . [Asgarov, A.M. The plant world of Azerbaijan. Baku: TEASPRES, 2016;444. (in Azerbaijani)]

Аскеров А.М., Акперов З.И. Редкие и исчезающие дикие сородичи культурных растений флоры Апшерона и Кобустана. Ялта: Бюллетень Государственного Никитского Ботанического сада, 2009;99:26-30. [Askerov, A.M., Akperov, Z.I. Rare and endangered

wild relatives of cultivated plants in the flora of Absheron and Gobustan. Yalta: Bulletin of the State Nikitsky Botanical Garden, 2009;99:26–30. (in Russian)]

Зернов А.С., Мирзоева Ш.Н. Чеклист флоры Апшерона. А.С. Зернов, Ш.Н. Мирзоева Баку: Институт ботаники НАНА, 2021;204. [Zernov, A.S., Mirzoeva, Sh.N. Checklist of the flora of Absheron. Baku: Institute of Botany of ANAS, 2021;204. (in Russian)]

Карягин И.И. Флора Апшерона. И. И. Карягин. Баку: АН Азерб. ССР, 1952;439. [Karyagin, I.I. Flora of Absheron. Baku: Academy of Sciences of the Azerbaijan SSR, 1952;439. (in Russian)]

Флора Азербайджана: [в 8-х т.] - Баку: Изд. АН Азерб. ССР, 1954;5: 579 [Flora of Azerbaijan: [in 8 vols.]. Baku: Publishing House of the Academy of Sciences of the Azerbaijan SSR, Vol. 5, 1954;5: 579. (in Russian)]

Флора Кавказа: [в 7 - х т.] Баку: Изд. АН АзСССР, 1952;5:453. [Flora of the Caucasus: [in 7 vols.]. Baku: Publishing House of the Academy of Sciences of the AzSSR, Vol. 5, 1952;5: 453. (in Russsia)]

An update of the Angiosperm Phylogeny Group classification for the orders and families of flowering plants: APG IV. *Botanical Journal of the Linnean Society*, 2016;181 (1):1–20

https://www.ipni.org/

https://www.apni.net/

https://cwr.croptrust.org/

https://www.worldfloraonline.org/

ILDIS. International Legume Database and Information Service, 2010, http://www.ildis.org/

IUCN Red List Categories and Criteria, 2001 Guidelines for using the İUCN Red List Categories and Criteria 2004.

ИССЛЕДОВАНИЕ ДИКОРАСТУЩИХ РАСТЕНИЙ, РАСПРОСТРАНЕННЫХ НА ОСТРОВЕ ЧИЛОВ

Камала Асадова*, Гюнель Кулиева, Харыбюль Азизханлы, Гюнель Аллахвердиева
Институт генетических ресурсов Министерства науки и образования Азербайджанской Республики

Настоящее исследование посвящено изучению флористического состава дикорастущих растений, распространённых на острове Чилов, расположенном в Каспийском море и подвергающемся антропогенному воздействию. Особенно важно отметить, что остров в течение многих лет подвергался сильному экологическому загрязнению вследствие утечек нефти и нефтепродуктов. Этот фактор значительно повлиял на состав и структуру растительного покрова, способствуя выживанию лишь стрессоустойчивых и высокоадаптивных видов.

В результате ареалогического анализа установлено, что на острове Чилов произрастают 11 видов лекарственного, пищевого и кормового значения, относящихся к 11 родам и 9 семействам.

Впервые за последние 50 лет на остров была организована флористическая экспедиция с использованием вертолёта. В ходе экспедиции было собрано 55 гербарных образцов, относящихся к 21 виду из 15 родов (*Avena, Anisantha, Aegilops, Reaumuria, Petrosimonia, Plantago, Artemisia* (*Artanacetum*), *Tragopogon, Melilotus, Lotus, Medicago, Vicia, Glycyrrhiza, Gypsophila, Elaeagnus*) из 8 семейств (*Poaceae, Tamaricaceae, Amaranthaceae, Plantaginaceae, Asteraceae, Fabaceae, Caryophyllaceae, Elaegnaceae*), а также 5 образцов семян 4 видов. Были зафиксированы экогеографические данные (координаты, высота над уровнем моря), проведён экологический анализ. Установлено, что виды, произрастающие на острове, в основном адаптированы к загрязнённым нефтью почвам и суровым климатическим условиям. С использованием программы Diva-GIS была составлена карта ареалов. В ходе исследования выявлен новый ареал распространения одного вида (*Vicia lutea* L.) относящегося к роду Вика (Горошек) семейства Бобовые.

Также были зафиксированы некоторые интродуцированные и инвазивные виды. Исследование имеет важное значение для изучения стратегий выживания растений,

биоэкологических адаптаций и разнообразия в условиях загрязнённой среды. Кроме того, полученные результаты могут служить основой для планирования мероприятий по восстановлению и оценки фитомелиоративного потенциала загрязнённых территорий.

Ключевые слова: *дикорастущие растения, остров Чилов, таксономический состав, изменение номенклатуры*

STUDY OF WILD PLANTS DISTRIBUTED ON CHILOV ISLAND

Kamala Asadova*, Gunel Guliyeva, Kharibul Azizkhanli, Gunel Allahverdiyeva
Genetic Resources Institute, Ministry of Science and Education of the Republic of Azerbaijan

This study is dedicated to the investigation of the floristic composition of wild plants distributed on Chilov Island, located in the Caspian Sea and subjected to intense anthropogenic influences. It is especially noteworthy that for many years the island has suffered from severe environmental pollution due to oil and petroleum product leaks. This factor has significantly influenced the composition and structure of the vegetation cover, allowing the survival of only stress-resistant and highly adaptive species.

As a result of arealogical analysis, it was found that 11 species of medicinal, food, and forage importance, belonging to 11 genera and 9 families, are distributed on Chilov Island.

For the first time in the last 50 years, a floristic expedition was organized to the island via helicopter. During the expedition, 55 herbarium specimens from 21 species belonging to 15 genera (*Avena*, *Anisantha*, *Aegilops*, *Reaumuria*, *Petrosimonia*, *Plantago*, *Artemisia* (*Artanacetum*), *Tragopogon*, *Melilotus*, *Lotus*, *Medicago*, *Vicia*, *Glycyrrhiza*, *Gypsophila*, *Elaeagnus*) from 8 families (*Poaceae*, *Tamaricaceae*, *Amaranthaceae*, *Plantaginaceae*, *Asteraceae*, *Fabaceae*, *Caryophyllaceae*, *Elaegnaceae*) and 5 seed samples of 4 species were collected. Ecogeographical data (coordinates and altitude) of the species were recorded, and their ecological features analyzed. It was found that the distributed species are mainly adapted to oil-contaminated soils and harsh climatic conditions. Their distribution map was created using Diva-GIS software. As a result of the research, a new distribution area of one species (*Vicia lutea* L.) belonging to the genus Vetch of the family Legume was identified.

Introduced and invasive species were also observed in the flora of the island. This study is important for understanding plant survival strategies, bioecological adaptations, and diversity in polluted environments. Moreover, the results can serve as a preliminary basis for planning restoration measures and assessing the phytomeliorative potential of contaminated areas.

Keywords: *wild plant, Chilov Island, taxonomic composition, nomenclature change*

Çapa təqdim etmişdir: Aydın Əsgərov, b.e.d., professor
Redaksiyaya daxil olma tarixi: 12.07.2025
Təkrar işlənməyə göndərilmə tarixi: 05.08.2025
Çapa qəbul edilmə tarixi: 12.09.2025